# MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**İradə Əliyeva**
*0000-0003-3162-0256, AMEA, A.A.Bakıxanov adına*
*Tarix İnstitutu “Ümumi tarix” şöbəsi, a.e.i.,t.ü.f.d.*
*aliyeva_irada@mail.ru,*

## THE FOREIGN POLICY OF INDEPENDENT AZERBAIJAN THE ROLE OF HAYDER ALIYEV

**Irada Aliyeva**

**Summary**

Heydar Aliyev, who came to power in a difficult situation that arose after the collapse of the Soviet Union, began serious and decisive activities in the direction of solving current problems in the country. The elimination of the internal economic crisis, the settlement of the Nagorno-Karabakh conflict and the advancement of Azerbaijan on the international arena were one of the main goals of the great leader. As a result of Heydar Aliyev's far-sighted policy, a truce was signed on May 12, 1994. After the ceasefire, which is necessary for the development of Azerbaijan, such an important project as "Contracts of the Century" is signed (September 20, 1994), which promotes the integration of Azerbaijan into the world economy. After creating the basis of economic development, Heydar Aliyev started work on determining the country's new foreign policy course. As a result, in the following years, it was possible to establish bilateral relations with the UNO, EU, CİS, OPEC and other influential organizations and become members of these organizations. the Turkic world, based on the principles of bilateral and multilateral relations. The foreign policy course, established many years ago by the national leader, is successfully expanding and developing today.

**Key worlds.** Heydar Aliev, foreign policy course, interaction, oil strategy, international organization.

## MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**İradə Əliyeva**

**Xülasə**

Sovetlər birliyinin dağılmasından sonra yaranan mürəkkəb vəziyyətdə hakimiyyətə gələn Heydər Əliyev ölkədəki mövcud problemləri həll etmək istiqamətində ciddi və qətiyyətli fəaliyyətə başladı. Daxili iqtisadi böhranı aradan qaldırmaq, Dağlıq Qarabağ münaqişəsini həll etmək və Azərbaycanı beynəlxalq arenada tanıtmaq Ulu öndərin əsas məqsədlərindən biri idi. İlk öncə Azərbaycan Ermənistanın öz ərazi iddialarını təmin etmək üçün başlatdığı haqsız müharibənin həlli yollarını tapmalı idi. Heydər Əliyevin xarici siyasət kursunun bir istiqaməti qərbyönümlü idisə, digər və ən mühüm istiqaməti türk dünyası ilə dostluq və qardaşlıq prinsiplərinə əsaslanan iki və çoxtərəfli münasibətlər idi. İllər öncə Ümummilli lider tərəfindən əsası qoyulan xarici siyasət kursu gününmüzdə daha da şaxələnərək uğurla inkişaf edir.

**Açar sözlər.** Heydər Əliyev, xarici siyasət kursu, qarşılıqlı əlaqələr, Neft strategiyası, beynəlxalq təşkilatlar

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА

**Ирада Алиева**

**Аннотация**

Гейдар Алиев, пришедший к власти в сложной ситуации, возникшей после распада Советского Союза, начал серьезную и решительную деятельность в направлении решения текущих проблем в стране. Устранение внутреннего экономического кризиса, урегулирование нагорно-карабахского конфликта и продвижение Азербайджана на международной арене были одной из главных целей великого лидера. В результате дальновидной политики Гейдара Алиева 12 мая 1994 года было подписано перемирие. После создания основы экономического развития Гейдар Алиев начал работу по определению нового внешнеполитического курса страны. В результате в последующие годы

удалось установить двусторонние отношения с ООН, ЕС, ИКТ, СНГ, ОПЕК и другими влиятельными организациями и стать членами этих организаций.Если одно направление внешнеполитического курса Гейдара Алиева было про- Западным, другим и важнейшим направлением была дружба и братство с тюркским миром, основанное на принципах двусторонних и многосторонних отношений. Внешнеполитический курс, заложенный много лет назад общенациональным лидером, сегодня успешно расширяется и развивается.

**Ключевые слова.** Гейдар Алиев, курс международной политики, взаимоотношение, Нефтяная стратегия, международные организации

**Giriş.** Heydər Əliyevin hakimiyyətə qayıtması yeni yaranmış müstəqil Azərbaycanın xilası demək idi. Onun qarşısında duran əsas vəzifələrdən biri düzgün xarici siyasət xəttini müəyyən etmək, respublikamızın imicini qaldırmaq, haqqımızda yaradılmış qeyri-obyektiv fikirlərin, xoşagəlməz miflərin dağıtmaq, dövlətlər arasında normal münasibətlər yaratmaq və Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq idi. Heydər Əliyevin xarici siyasətində Azərbaycanın elmini, mədəniyyətini, tarixini dünya dövlətlərinə tanıtmaq, xarici dövlətlərlə bərabərhüquqlu, Azərbaycanın mənafeyinə xidmət edən əlaqələr yaratmaq və o zaman ən mühüm problem olan Qarabağ probleminin həlli ən mühüm yer tuturdu. Bunu yalnız sabit və qüdrətli iqtisadiyyat qurmaqla edə biləcəyini anlayan lider Azərbaycanda ilk öncə sabitlik rejimini bərpa etdi. Çünki heç bir dünya dövləti qaynar münaqişə zonasında iqtisadi layihələrin həyata keçirilməsini maliyyələşdirməzdi.

**Azərbaycanın xarici siyasətinin başlıca vəzifələri**

Azərbaycanın yeni yaranan xarici siyasətinin müxtəlif preoritet istiqamətləri var idi. Bunlardan ən əsası iqtisadi inteqrasiya siyasəti idi. Belə ki, Azərbaycanın regionda və dünyada geosiyasi mövqeyini möhkəmləndirən əsas amillərdən biri Xəzərin ona məxsus sektorundakı zəngin karbohidrogen ehtiyatları və həmin resursların alternativ marşrutlarla dünya bazarlarına daşınması sahəsində həyata keçirdiyi müstəqil və Qərbyönümlü enerji siyasəti olmuşdur. Nəzərdə tutulan iqtisadi siyasətin həyata keçirilməsi üçün qarşıda duran əsas məsələ Dağlıq Qarabağ münaqişəsinin həlli idi. Belə ki, müharibə vəziyyətinin davam etdiyi bölgəyə investisiya qoyulmasını təmin etmək son dərəcə mürəkkəb məsələ idi. Burada da Heydər Əliyev uzaqgörənliyi öz işini gördü.

Azərbaycanın dünyada tanınması, dünya ölkələri ilə münasibətlər, əməkdaşlıq yaradılması üçün respublika prezidentinin xarici ölkələrə tarixi səfərləri başladı, Heydər Əliyevin rəsmi səfərləri Azərbaycanın uğurlu xarici siyasətinin mühüm səhifəsidir. Xarici səfərləri Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, xarici dövlətlərlə qarşılıqlı münasibətlər, dünyaya inteqrasiya olunmaqda, respublikamızın bir çox problemlərinin, iqtisadi əlaqələr yaratmaq, xüsusilə Dağlıq Qarabağ məsələsinin, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yollarının axtarılmasında mühüm rolu olmuşdur. Bu səfərlərin nəticəsində iqtisadi əməkdaşlıq yaradılması üçün geniş üfüqlər açılmış, bu isə respublikamızda investisiya imkanlarının artmasında faydalı tədbirlər həyata keçirilməsinə təsir etmişdir.

Azərbaycan elə bir geosiyasi məkanına çevrilmişdir ki, orada "ABŞ, Avropa İttifaqı, Rusiya və başqa dünya güclərinin geoiqtisadi maraqları, geosiyasi və hərbi-geostrateji mövqeləri bir-birinə ən yüksək dərəcədə yaxındır" [4, s.117].

Bu illər ərazində Azərbaycanın təşəbbüsü 34 beynəlxalq transmilli şirkət və 16 nüfuzlu dövlət ilə Xəzər regionundakı nəqliyyat-kommunikasiya dəhlizi və ixrac kəmərlərinin çəkilişi, yenidən qurulması və s. layihələrə qatılmış, onların reallaşmasında iştirak etmişdir. Enerji layihələri, nəqliyyat sahəsində dəhlizlərin yaradılması, qarşılıqlı əlaqələrin Azərbaycanın maraqlarına uyğun sistemləşdirilməsi prosesidir.

Azərbaycanı dünyanın mühüm təşkilat və qurumlarının üzvünə çevirmək Heydər Əliyevin xarici siyasətində mühüm rol oynayırdı. Azərbaycanın dünyada gedən proseslərdə Cənubi Qafqazın lider dövləti olaraq enerji və Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən - böyük bir nəqliyyat dəhlizini özündə ehtiva edən bir ölkə kimi Avropa üçün çox önəmlidir [2, s.9]. 1992-ci ilin 2 mart tarixində Azərbaycan BMT-yə üzv seçilmişdir. Nəticədə çoxsaylı beynəlxalq təşkilatlar, o cümlədən BMT

Təhlükəsizlik Şurası tərəfindən Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün mühüm qərar və qətnamələr qəbul edilmişdir.

1998-ci ildə Avropa İttifaqı Azərbaycana xüsusi elçisini təyin etmiş, 2000-ci ildə isə Azərbaycanın Avropa İttifaqı yanında Nümayəndəliyi təsis edilmişdir. 2004-cü ildə Azərbaycan Avropa Qonşuluq Siyasətinə, 2009-cu ildə isə onun Şərq istiqaməti üzrə çoxtərəfli əməkdaşlıq formatı olan Şərq Tərəfdaşlığı proqramına daxil edilmişdir. 2014-cü ildə tərəflər arasında Azərbaycanın Avropa İttifaqı proqramlarında və agentliklərində iştirakına dair Protokol imzalanmışdır [2, s.9].

Regionun ən qüdrətli dövləti olan Rusiya ilə də münasibətlər yenidən bərpa olunur. Tərəflərin biri-birinə rəsmi səfərləri, çoxsaylı görüşlərdə həmçinin Xəzərin hüqquqi statusu məsələsinin də həllinə şərait yaratdı. Eyni zamanda cənub qonşu İranla siyasi əlaqələr qaydaya salınmışdır.

Türkiyə Cumhuriyyəti ilə qarşılıqlı əlaqələr Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətini təşkil edirdi. "İki dövlət, bir millət" prinsipinə əsaslanan bu siyasətin nəticəsidir ki, Azərbaycan ilk səfirliyini məhz Türkiyədə açmışdır. Türkiyə ilə Azərbaycan həmçinin nəhəng iqtisadi layihələrdə də əməkdaşlıq edirlər.

Azərbaycannın xarixi siyasətində  türkdilli dövlətlərlə qarşılıqlı, bərabərhüquqlu maraqların nəzərə alınmasına, ərazi bütövlüyünə hörmətə və bütün ölkələrin suverenliyinə əsaslanan münasibətlərin qurulması vacib məqamlardan idi. Bu günümüzün çağırışı məhz onlar arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi, ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması, hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi kimi məsələlərdir [3, s.2].

Heydər Əliyevin xarici siyasət kursunun davamçısı olan Prezident İlham Əliyev Azərbaycana həm regionda gedən proseslərdə, həm də beynəlxalq aləmdə baş verən  hadisələrə təsir göstərmək imkanını qazandırmışdır. Bu siyasətin əsasını varislik ilə yenilik arasındakı tarazlıq təşkil edir. Azərbaycanın davam etdirdiyi siyasət modeli ölkənin davamlı inkişafının təmini üçün əlverişli xarici şəraitin yaradılmasına yönələn diplomatik strategiyanın davam etdiriləmsinə şərait yaratmışdır. Prezident İlham Əliyev Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Prezident İlham Əliyev ölkədə İnsan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını daim diqqət mərkəzində saxlayır. Ən əsası Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir.

Çoxminillik tarixində multikulturalizm və tolerantlığın nəinki mümkünlüyünü, hətta inkişafını sübut etmiş Azərbaycan bu xüsusda dünya üçün bir örnəkdir. Ona görə də Bakı bu gün sivilizasiyalararası dialoq və multikulturalizm mövzusunda aparılan qlobal müzakirələrin mərkəzinə çevrilmişdir [1, s. 2].

Azərbaycan milli maraqlarından çıxış edərək daim öz mövqeyini qoruyub və regionda hansısa geosiyasi balans yaranıbsa, bu, Azərbaycanın milli maraqlarına xidmət edən tarazlıqdan ibarət olub. Konkret ifadə etsək – Azərbaycanın milli maraqları müxtəlif qüvvələr arasında maraqlar balansının yaradılması hesabına deyil, balansın özü milli maraqlarımızın tələb etdiyi şərtlər daxilində reallaşıb. İndi bu proses özünün yeni səviyyəsinə yüksəlir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Baxşəliyeva, G. Azərbaycan – Şərqin parlayan ulduzu Azərbaycan. – 2018.- 28 oktyabr. – № 243. – S. 1,3
2. Bədəlov, Ə. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritetlərindəndir // Xalq qəzeti.-2019.-18 may.-№108.-S.9
3. Yohannes, R. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Avropanın mövqeyi // "Azerbaijan  Focus" jurnalı, yanvar-mart, 2010, s. 117